**Ülviyyə Kamil qızı Bəşirli[1]**

# XÜSUSI TƏHSİL MÜƏSSISƏLƏRİNDƏ VALİDEYNƏ DƏSTƏK FORMALARI

Məktəb – təhsil sisteminin əsasını təşkil edən, təlim və tədris prosesinin aparıldığı, məktəbdaxili sosial münasibətlərin qurulduğu yerdir. Məktəbdaxili münasibətlər həm tədris prosesinin məhsuldarlığına, həm də şagirdlərin akademik göstəricilərinə təsir göstərən mühüm amillərdəndir. Bu əlaqələri "müəllim-şagird münasibətləri", "şagird-şagird münasibətləri", "şagird-məktəb-cəmiyyət münasibətləri" kimi kateqoriyalara bölmək olar. Xüsusi təhsil müəssisələrində valideynə dəstək formaları həm fərdi, həm də qrup halında həyata keçirilir. Bu, sağlamlıq imkanları məhdud şəxslərin məhdudiyyətlərinin dərəcəsindən asılı olaraq dəyişir. Bəzən isə ilk öncə uşaq və valideyn məktəbə alışana qədər dəstəkləmə prosesi fərdi formada, artıq uşaq və valideyn məktəbə alışdıqdan sonra isə qrup halında aparılır.

*Müəllimin ailəyə baş çəkməsi:* Atalarımız yaxşı deyib ki, uşaq evin güzgüsüdür. Fərqi yoxdur, tipik yaxud qeyri-tipik uşaqlar olsun, onlar hər zaman ilkin tərbiyəni ailədən alırlar. Elə buna görə də, Y.A.Komenski 0-6 yaş aralığını ana qucağı məktəbi adlandırırdı. Sağlamlıq imkanları məhdud uşaqların tərbiyəsinə dair müəllimlərinin ailələrə baş çəkməsi uşaqlarda və valideynlərdə məsuliyyət yaratması ilə bərabər, həm də sinifdə təlimin düzgün təşkili üçün zəmin yaradır. Müəllim həm uşağın ailə vəziyyəti ilə tanış olur, həm də onun hansı mühitdə tərbiyə aldığına şahid olur. Getdiyi evdə şagirdin təlim-tərbiyəsi barədə onun valideynləri ilə fikir mübadiləsi aparır, məsləhətlər verir. Biz bu formanı daha əvvəl uşaqlarını məktəbə göndərmək istəməyən valideynlərlə aparılan pedaqoji fəaliyyətin bir hissəsi kimi də həyata keçirmişik [5, s.43].

Müəllimin ailəyə baş çəkmə vaxtını valideynlər müəyyənləşdirir. Müəllim əvvəlcədən şagirdin şəxsi işi ilə tanış olmalıdır. Müəllimlərin ailəyə gedərkən uşaq haqqında zəruri məlumatları öyrənmək üçün iş apardıqlarını qeyd etmələri vacibdir. Müəllimin gələcəkdə həmin ailə ilə sonrakı münasibəti birbaşa olaraq müəllimin ailəyə ilk baş çəkmə prosesinin nəticəsindən aslıdır. Çünki hər ailədə müəllimin gəlişinə fərqli münasibət olur. Buna görə də münasibətin necə olmasından asılı olmayaraq, müəllimə səmimiyyət, səbr, nəzakət, yüksək səviyyəli müşahidə, peşəkarlıqlıq kimi bacarıqlar lazımdır.

Bu bir reallıqdır ki, hər ailə müəllimi eyni cür qarşılamır. Belə ki, bəzi ailələr müəllimi çox hərarətlə və əsəbi qarşılayır, bəziləri müəllimi qapıda saxlayır, hətta qapının kandarından içəri keçməyi belə təklif etmir. Buna görə həm müsbət, həm də mənfi təzahürlər uşağın böyüdüyü mikroiqlimi başa düşmək üçün müəyyən dəyər daşıyır. Ancaq bir məqamı da qeyd etməyimiz yerinə düşər ki, bəzən valideynin müəllimə qarşı olan aqressiv münasibəti şagird-müəllim münasibətinə mənfi təsir göstərir. Lakin yaddan çıxarmamaq lazımdır ki, valideynlərin müəllimə münasibəti müəllimlərin uşağa, ailəyə münasibətinə təsir göstərməməli və alınan məlumatlar məxfi saxlanmalıdır. Uşağa bu barədə məlumat vermək, yaxud ailəsinə görə onu günahlandırmaq qəti qadağandır [4, s.12].

*Valideynin məktəbə dəvət olunması:* Xüsusi təhsil müəssisələrində valideynə fərdi dəstək formalarının növlərindən biri də valideynin məktəbə dəvət olunmasıdır. Valideynləri məktəbə dəvət edərkən pedaqoji mədəniyyətə riayət etmək lazımdır. Əvvəlcədən vaxt təyin olunmalı, əgər valideyn işləyirsə, müəllim və valideynin hər ikisinin də iş cədvəlinə uyğun gün və saat seçmək lazımdır. Valideyn müəyyən olunmuş vaxtda məktəbə gəldikdə isə mehriban qarşılanmalıdır. Bəzən sağlamlıq imkanları məhdud uşaqların valideynləri məktəbə gəlib çatdıqda həyəcanlı yaxud əsəbi ola bilirlər, ona görə də diqqətli olmaq lazımdır. Belə ki, xoş atmosfer yaratmaq, ilk öncə onları sakitləşdirmək ilk hədəfimiz olmalıdır. Onlarla şagird söhbətə başlayarkən təkbətək danışmağa diqqət etmək lazımdır, çünki onlar yalnız söhbətin məxfi qalacağına inandıqdan sonra səmimi olacaqlar. Valideynin məktəbə dəvət olunması ilə bağlı görüşə bu qədər həssas yanaşılmasının səbəbi ondan ibarətdir ki, beləbir görüş bir çox ziddiyyətləri aradan qaldıracaq. Çünki hər iki tərəf üçün, həm müəllim, həm də valideynlər üçün faydalı olacaqdır [4, s.15].

Burada müəllim valideynin bütün suallarını cavablandırır, daha sonra isə məktəbin və sinfin tələblərini nəzərə çatdırır. Səmimiyyət yarandıqdan sonra valideyn uşağına dair müəllimdən faydalı məsləhətlər alır ki, bu məsləhətlər də valideynlərin uşaqlarla daha yaxından məşğul olmasına birbaşa kömək edir. Suallarına cavab tapan valideynlər artıq uşaqlarına qayğı göstərildiyinə daha da əmin olurlar. Mütləqdir ki, belə bir söhbət zamanı müəllim, xüsusilə, istifadə etdiyi ifadələrində həddindən artıq nəzakətli olmalıdır. Belə ki, şagirdin çatışmazlıqlarını həddən artıq dilə gətirməməlidir. Çünki bu zaman valideynlər utanır yaxud həvəsdən düşürlər. Daha çox müsbət cümlələrdən istifadə etməyə çalışmalıyıq. Bu motivasiya xarakterli görüş düzgün təşkil olunarsa, həm valideyn, həm müəllim, həm də şagird üçün kifayət qədər yararlı olacaq.

*Əvəzedici yaxud himayədar şəxsin məktəbə dəvət olunması:* Xüsusi təhsil müəssisələrində təhsil alan şagirdlər bəzən hər iki valideynini itirmiş uşaqlar olurlar. Bu zaman məktəbə ya şagirdin yaşadığı quruma rəhbərlik edən şəxs yaxud da övladlığa götürən şəxs (himayədar, qəyyum) dəvət olunur. Aydındır ki, bu məsuliyyəti üzərinə götürmək çox təqdirəlayiqdir. Buna görə də onlarla söhbət edərkən şagirdlə bağlı istiqamət vermək, onlara xüsusi dəstək olmaq lazımdır ki, nə etməli olduqlarını dərindən mənimsəsinlər. Müəllimlərin bu barədə həmin şəxslərə məsləhəti, istiqaməti himayədarlar və şagirdlər arasında daha yaxşı münasibətin formalaşmasına kömək olacaqdır. Bu da bizim ən çox gəlmək istədiyimiz nəticələrdəndir. Beləliklə, valideyn yaxud onu əvəz edənlərlə əməkdaşlığın həyata keçirilməsi xüsusi təhsil müəssisələrində valideynə dəstəyin əsas formalarındandır. Əməkdaşlıq pozulduğu halda isə uşaqların təhsilində və tərbiyəsində natarazlıqlar əmələ gəlir [2, s. 176].

*Xüsusi təhsil müəssisələrində valideynə dəstək forması:* Bəzən valideynlər düşünür ki, onların bütün iclas və görüşlərdə iştirak etməsi o qədər də vacib deyil. Buna görə də onlar öz vəzifələrini icra etməkdə çətinlik çəkirlər.

Yeni məlumatlardan və öhdəliklərdən geri qalır, beləliklə həm təhsil müəssisəsinin işindən, həm də övladlarının pedaqoji fəallığından xəbərsiz olurlar. Bəzən isə əksinə valideynlər müəyyən məqamlarda onların da fikirlərinin dinlənilib nəzərə alınması barədə narahatlıq keçirirlər və düşünürlər ki, onların bu işdə söz haqqı yoxdur. Ona görə də bu işə laqeyd yanaşmaqları da bəzən normal hal kimi qəbul oluna bilər. Nəzərə almaq lazımdır ki, müəllimlərin valideynlərdən gözləntilərinin olması təkcə bir tərəfi əhatə etməməlidir. Burada söhbət həm də valideyn gözləntilərindən də getməlidir. Çünki onların gözləntilərinin və ehtiyaclarının qarşılanması ilə bağlı tədbirlərin həyata keçirilməsi bizim nəticəmizi müsbətə doğru dəyişir. Bəs bu gözləntilər nə ilə bağlıdır? Onları gözləntiləri, ilk növbədə, uşaqlara keyfiyyətli biliyin verilməsi, müəllimlərin peşəkarlığının artırılması, təlim-tərbiyə prosesinin, tədris proqramlarının və dərsliklərin təkmilləşdirilməsi ilə bağlıdır. Çünki müəllimlər ən birinci olaraq öz sənətini yaxşı bilən və sevən olmalıdırlar. Qabaqcıl məktəblərin və müəllimlərin iş prinsiplərini öyrənilməli, vaxtaşırı ixtisaslaşma kurslarından keçməlidirlər. Eyni zamanda valideynlər tərəfindən uşaqların təlimində yüksək motivləşmənin yaradılması xüsusi qeyd olunur. Onlar müəllimlərdən seçmə fənlər üzrə dərslərin daha maraqlı aparılmasını və müxtəlif intellektual yarışların keçirilməsini gözləyirlər. Bunun üçün də fərdi təhsil planının hazırlanmasında onların gözləntilərinin və ehtiyaclarının qarşılanması ilə bağlı tədbirlərin həyata keçirilməsi də planlar içərisində olmalıdır.

İnklüziv təhsilin keyfiyyətini təmin edən bir çox amillər vardır ki, bunlardan da biri valideynlərin təhsil prosesində fəal iştirakı və təhsil müəssisəsi ilə yaxından əməkdaşlıq etməsidir. Lakin bir çox hallarda valideynlər müəyyən səbəblərdən – laqeydlik, səriştəsizlik, məlumatsızlıq və s. kimi səbəblərdən bu prosesdən kənarda qalır və təhsilə öz töhfələrini verə bilmirlər. Bunun mənfi nəticələri ilə isə övladlarımız üzləşməli olur [3, s.95].

Nəzərə almaq lazımdır ki, şagirdlərin yaxşı təhsil alması ancaq müəllimdən asılı deyil. Təlim yanaşması və tədris metodikası nə qədər təsirli olsa da, müəllimin təkbaşına onlarla uşağa keyfiyətli təlim verməkdə çətinliklərlə üzləşməsi labüddür. Bu işdə müəllimə anlayış göstərmək və dəstək olmaq vacibdir. Bu məqsədlə valideynlər sinifdənxaric və məktəbdənkənar tədbirlərlərin təşkilində müəllimə köməklik göstərə, məktəbin icma ilə əməkdaşlığına töhfə verə, hətta zəruri hallarda təlim prosesində belə müəllimə müəyyən dəstək göstərə bilərlər. Uğurlu müəllim-valideyn əməkdaşlığı müəllimlərdə motivasiya və öz peşəsinə rəğbət oyadır ki, bu da birbaşa şagirdlərin təhsilinə müsbət təsir göstərir [6, s.14].

Müəllimlər valideynlərdən əlavə qardaş və bacıları da dinləməlidirlər. Belə ki, uşaqlar evdə adətən bacı və qardaşları ilə çox vaxt keçirir, bir-birilərini daha yaxından tanıyırlar. Ona görə də bacı və qardaşların fikirlərini də öyrənmək çox əhəmiyyətli olardı. Beləliklə, müəllimlər nəinki valideynlər, eyni zamanda bütün ailə ilə müntəzəm olaraq ünsiyyətdə və əlaqədə olmaqla uşaq haqqında xüsusi məlumatları təmin edə bilər. Bu üsul isə həmin uşaqların sinif şəraitində və dərsdənkənar dəstəklənməsi prosesində, eyni zamanda sosial biliklərin əldə edilməsində çox mühüm rol oynayır. Sinif valideyn iclasları xüsusi təhsil müəssisələrində bir qayda olaraq tədris ili ərzində bir neçə dəfə keçirilir. Bəzən isə zərurət yarandıqda ayda və ya həftədə bir dəfə də keçirilə bilər. Valideyn iclaslarının keçirilmə mahiyyəti valideynlərə maarifləndirmə məktəbi olmaqdan ibarət olmalıdır. Onları yaxşı valideyn olmağa sövq etmək ilk öncə pedaqoji dünyagörüşlərini inkişaf etdirməkdən başlayır. Şagirdlər və valideynlər üçün mühüm olan məsələlər bu iclasda müzakirəyə açıq elan olunmalıdır. Valideyn iclaslarında müzakirə olunmalı məsələlərdə ilk olaraq şagirdlərin nailiyyətlərindən yaxud uğursuzluqlarından bəhs etmək olmaz. Bütün şagirdlərin nəticələri eyni olmadığı üçün, bu, bəzi valideynlər tərəfindən xoş qarşılanmaya da bilər. Eyni zamanda valideynlərin pedaqoqların uşaqların təhsilindən də öncə sağlamlıqlarına diqqət yetirdiklərinə inanmaqları üçün də gündəlik məsələlər məhz bu mövzuda başlamalıdır. Bu məsələləri belə qeyd edə bilərik: uşağın sağlamlığı; mYktYbdY olarkən əhval-ruhiyyəsi; u_aqlar1n dostluq münasibətləri; davranış reaksiyaları; xasiyyətindəki fərqli xüsusiyyətləri.

Xüsusi təhsil müəssisələrinin digər təhsil müəssisələrindən fərqi burada işləyən pedaqoq və psixoloq kollektivindən başqa bir də daha geniş bir tibb kollektivinin fəaliyyət göstərməsidir. Çünki bəzi uşaqların xəstəlik və narahatçılıqları ilə bağlı olaraq həkimə daha çox ehtiyacları olur. Belə olduqda isə həkimlərin vaxtında müdaxiləsi valideyn və uşaqlar üçün çox əlverişlidir. Uşaqların səhhəti, əhval-ruhiyyəsi nə qədər yaxşı olarsa, bu, onların pedaqoji fəaliyyətlərinə bir o qədər müsbət təsir göstərər. Sağlamlıq məsələlərinin müzakirəsi bitdikdən və valideynlərin iclasa adaptasiya olmaqlarından əmin olduqdan sonra digər məsələlərə keçmək olar. Bu məsələrə şagirdlərin pedaqoji fəaliyyətinə aid olan mövzuları aid etmək olar.

Şagirdlərin dərsdə iştirakının, bacarıq və imkanlarının həm müsbət, həm mənfi tərəflərini təhlil etmək sinfin tədris irəliləmə dərəcəsinə kifayət qədər təsir göstərir. Valideyn iclasları təkcə problem və münaqişələrə köklənməməli, uşaqların əldə etdiyi uğurların nümayişinə də imkan yaratmalıdır. İclasda müzakirə yalnız dərsdə alınmış qiymətlər barədə deyil, eyni zamanda biliyin keyfiyyəti və fərdi güclərin səviyyəsi haqqında olmalıdır. Bəzi valideynlər nəinki şagirdlərin dərsləriylə məşğul olur, həm də dərsdənkənar fəaliyyətlərinin inkişaf etməsinə kömək edirlər. Bu örnək davranışın bütün valideynlər üçün faydalı olması baxımından bəzi valideyn iclaslarından sonra həmin şagirdlərin dərsdənkənar fəaliyyətlərinin, xüsusilə yaradıcılıq işlərinin sərgisi hazırlanmalıdır. Bu sərginin məqsədi bütün valideyn və şagirdlər üçün həvəsləndirici olmaqdır [1, s.123].

Valideynlər üçün sosial işçilərin iştirakı ilə dəstək qrupları təşkili formalarından biri də hər birinin birgə iştirak etdiyi tədbirlərdir. İl ərzində valideynlərin tədris prosesinə cəlb edilməsi ilə bağlı təşkil olunan tədbirlərdə şəkillər, videolar çəkilir, həmin şəkil və videolardan ayrı-ayrı və ya ümumi “slayd-şou” hazırlanaraq valideyn iclaslarında təqdimat edilir. Bu, tədbirlərdə fəal iştirak etmiş valideynlərdə xoş əhval ruhiyyə yaradır, həm də digər valideynlər də fəallaşaraq sinif tədbirlərinə qoşulmaq üçün həvəslənir [7, s.10].

*Uşağın fəaliyyəti ilə bağlı qeyd, tapşırıq dəftərlərinin hazırlanması:* Valideynlərin məktəb ilə daha sıx əməkdaşlıqları üçün müəllimlər bir çox vasitələrə yönəlirlər. Qeyd və tapşırıq dəftərlərinin hazırlanması da bu vasitələrə aiddir. İlk öncə valideynlərin hər birinin uşaqlarının gündəlik tapşırıqlarını, uşaqlara və eyni zamanda özlərinə də aid olacaq qeydləri yazacaq dəftər tutmaları xahiş olunur. Daha sonra isə uşağın xüsusi müvəffəqiyyət və davranışlarını qeyd etmək məqsədilə müəllim və valideynlər bir-birlərinə qarşılıqlı olaraq qeyd etmə kartları göndərir. Bununla da hər iki tərəf uşaqların fəaliyyətinin izlənməsinə dair sistematik izləmə imkanı əldə edirlər.

Bəzən valideynlər düşünür ki, onların bütün iclas və görüşlərdə iştirak etməsi o qədər də vacib deyil. Buna görə də onlar öz vəzifələrini icra etməkdə çətinlik çəkirlər. Yeni məlumatlardan və öhdəliklərdən geri qalır, beləliklə, həm təhsil müəssisəsinin işindən, həm də övladlarının pedaqoji fəallığından xəbərsiz olurlar. Bəzən isə əksinə, valideynlər müəyyən məqamlarda onların da fikirlərinin dinlənilib nəzərə alınması barədə narahatlıq keçirirlər və düşünürlər ki, onların bu işdə söz haqqı yoxdur. Ona görə də bu işə laqeyd yanaşmaqları da bəzən normal hal kimi qəbul oluna bilər. Nəzərə almaq lazımdır ki, müəllimlərin valideynlərdən gözləntilərinin olması təkcə bir tərəfi əhatə etməməlidir. Burada söhbət həm də valideyn gözləntilərindən də getməlidir. Çünki onların gözləntilərinin və ehtiyaclarının qarşılanması ilə bağlı tədbirlərin həyata keçirilməsi bizim nəticəmizi müsbətə doğru dəyişir. Bəs bu gözləntilər nə ilə bağlıdır? Onları gözləntiləri ilk növbədə uşaqlara keyfiyyətli biliyin verilməsi, müəllimlərin peşəkarlığının artırılması, təlim-tərbiyə prosesinin, tədris proqramlarının və dərsliklərin təkmilləşdirilməsi ilə bağlıdır. Çünki müəllimlər ən birinci olaraq öz sənətini yaxşı bilən və sevən olmalıdırlar. Qabaqcıl məktəblərin və müəllimlərin iş prinsipləri öyrənilməli, vaxtaşırı ixtisaslaşma kurslarından keçməlidirlər. Eyni zamanda valideynlər tərəfindən uşaqların təlimində yüksək motivləşmənin yaradılması xüsusi qeyd olunur. Onlar müəllimlərdən seçmə fənlər üzrə dərslərin daha maraqlı aparılmasını və müxtəlif intellektual yarışların keçirilməsini gözləyirlər. Bunun üçün də fərdi təhsil planının hazırlanmasında onların gözləntilərinin və ehtiyaclarının qarşılanması ilə bağlı tədbirlərin həyata keçirilməsi də planlar içərisində olmalıdır.

**Ədəbiyyat siyahısı**


1. Abbasov A. (2019). Ailə pedaqogikası. Bakı, "Mütərcim", 270 s.
2. Çələbiyev N. (2015). Ailə psixologiyası. Bakı, "Mütərcim", 422 s.
3. H.H.Əhmədov, N,E.Zeynalova, "Elm və Təhsil", Pedaqogika, Bakı 2021
4. İnklüziv təhsildə işləyən müəllimlərin tədris metodikası // "Azərbaycanda inklüziv təhsilin tətbiqi problemləri və onların aradan qaldırılması yolları" mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 02 may 2014, s.95-96.
5. N.E.Zeynalova, İnklüziv təhsil, "Elm və Təhsil", Bakı, 2021.
6. Təlim prosesinin keyfiyyətinin yüksəldilməsində müəllim-şagird münasibətlərinin rolu // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2010, №3, s.16-21.
7. Təlim prosesinin səmərəliliyinin yüksəldilməsində müəllim-şagird-valideyn əməkdaşlığının rolu / "Pedaqogika elminin inkişafında yeni mərhələ" beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, BDU, 28- 29 iyun, 2011, s. 279.



***XÜLASƏ***

Məqalədə xüsusi təhsil müəssisələrində valideynə dəstək formalarının həm fərdi, həm də qrup halında həyata keçirilməsi göstərilmiş, uşaq və valideyn məktəbə alışana qədər dəstəkləmə prosesinin fərdi formada, artıq uşaq və valideyn məktəbə alışdıqdan sonra isə qrup halında aparılması haqqında söhbət açılmışdır. Müəllimin ailəyə baş çəkməsi, valideynin məktəbə dəvət olunması, əvəzedici yaxud himayədar şəxsin məktəbə dəvət olunması, xüsusi təhsil müəssisələrində valideynə dəstək forması, uşağın fəaliyyəti ilə bağlı qeyd, tapşırıq dəftərlərinin hazırlanması kimi mövzulara diqqət yetirilmişdir.



***Açar sözlər:*** xüsusi məktəb, valideyn, müəllim, qrup, tapşırıq.


**Формы поддержки родителей в специальных образовательных учреждениях**


***Резюме***

В статье показано, как реализуются формы поддержки родителей в специальных образовательных учреждениях как индивидуально, так и в группах, а также обсуждается, как процесс поддержки должен осуществляться индивидуально до тех пор, пока ребенок и родитель не привыкнут к школе, и в группах после того, как ребенок и родитель уже привыкли к школе. Внимание уделялось таким темам, как визиты учителей в семью, приглашение родителей в школу, приглашение замещающих лиц или опекунов в школу, формы поддержки родителей в специальных образовательных учреждениях, регистрация деятельности ребенка и подготовка рабочих тетрадей.



***Ключевые слова:*** *школа, родитель, учитель, группа, задание.*


**Forms of support for parents in special educational institutions**


***Summary***

In the article it is talked about how forms of support for parents are implemented in special educational institutions both individually and in groups, and also discussed that how the support process should be carried out individually until the child and parent get used to school, and in groups after the child and parent already got used to school. Attention was paid to such topics as teacher visits to the family, inviting parents to school, inviting substitutes or guardians to school, forms of support for parents in special educational institutions, registering the pupil's activities and preparing workbooks.



***Keywords:*** *school, parent, teacher, group, assignment.*

**RƏYÇİ: dos. L.Ələkbərova**